Culture & Creativity
EU-Eastern Partnership Programme




# MƏDƏNIYYƏT VƏ YARADICILIQ SAHƏLƏRININ ƏHƏMIYYƏTI HAQQINDA FAKTIKI MƏLUMATLAR



Proqram Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

# Yaradıcılıq sahələrinin iqtisadi təsiri

Yaradıcılıq və mədəniyyət sahələri (YMS) 535.9 milyard avro məbləğində gəlir gətirməklə, Avropanın ÜDM-nun 4.2%-ni təşkil edir. Tikinti sənayesindən, habelə restoran və barlar kimi qida və içki xidmətləri göstərən sahələrdən sonra sözügedən sektor işəgötürənlərin sayına görə üçüncü yerdə qərarlaşır. [1]

2012-ci ildə üç ən böyük fəaliyyət sahələri sırasında məcmu halda YMS-nin yarıdan çoxunu təşkil edən təsviri incəsənət (127 milyard avro), reklam (93 milayrd avro) və televiziya (90 milyard avro) yer almışdır. Eyni zamanda, qəzet, jurnal və kitabların nəşri məcmu halda 107 milyard avro məbləğində gəlir gətirmişdir. [1]

Əqli mülkiyyətdən əhəmiyyətli dərəcədə asılı olan fəaliyyət növləri Avropanın inkişafını şərtləndirir və Aİ ölkələrinin ÜDM-nun 38.6%-ni təşkil edir. Yaradıcılıq sahələrinin 11 sektoru ilə təmsil olunan və müəlliflik hüququ ilə bağlı olan fəaliyyətlər 2012-ci ildə Aİ ölkələrinin ÜDM-nun 4.2%-ni təşkil etmişdir. [1]

Birləşmiş Krallıqda yaradıcılıq sahələri hər saat üçün 9.6 milyon funt-sterlinq gəlir gətirir. [2]

Birləşmiş Krallıqda yaradıcılıq sahələrinin il ərzində iqtisadiyyata 71.4 milyard funt-sterlinq dəyərində töhfə verdiyi və burada 1.68 milyon iş yerinin açılmasını təmin etdiyi müəyyən olunmuşdur. Ən son hesablamalarda bu rəqəmlər il ərzində 84.1 milyard funt-sterlinq və 1.9 milyon iş yeri kimi göstərilirdi. [2]

Son statistik məlumatlara əsasən yaradıcılıq sahələrini əhatə edən sektorun artım göstəricisi il ərzində 8,6% təşkil etmişdir. Bununla da, sözügedən sektor BK-ın ən sürətlə genişlənən ikinci sənaye sektoru kimi qiymətləndirilir.

İncəsənət və mədəniyyət sahəsinə qoyulan hər funt iqtisadiyyatda 1.06 funt-sterlinq məbləğində əlavə dəyər yaradır. [6]

***İnkişaf üçün Maliyyə***

"Edge Investments" tərəfindən Britaniya Biznes Bankının 40 milyon funt-sterlinq məbləğində maliyyə yardımı əsasında yaradıcılıq sahələri üzrə investisiya fondunun yaradılması əsas uğurlardan biri hesab olunur. [2]

2014-cü ildə yaradıcılıq sahələrində xidmətlərin ixracının həcmi 19.8 milyard funt-sterlinqə çatmışdır, bu isə BK-da xidmətlərin ümumi ixrac həcminin 9%-ni təşkil etmişdir. [2]

# Məşğulluq

7 milyondan çox avropalı mədəniyyət və yaradıcılıq fəaliyyətləri ilə birbaşa və ya dolayı yolla məşğul olur. Bu rəqəm BK-da iqtisadi fəal əhalinin 3.3%-nə bərabərdir. [1]

Təsviri incəsənət, ifaçılıq sənəti və musiqi sənayesi Avropanın YMS arasında ən böyük işəgötürənlər hesab olunur. 2012-ci ildə BK-da YMS üzrə 7 milyon iş yerinin təqribən yarısı sözügedən sahələrin payına düşürdü. İfaçılıq sənəti (1,234,500), təsviri incəsənət (1,231,500) və musiqi (1,168,000) sahələrinin hər birinə bir milyondan çox işçi cəlb olunur, sonrakı yerləri reklam (818,000), kitab istehsalı (646,000) və kino sənayesi (641,000) tutur. [1]

İş yerləri baxımından Aİ ölkələrində YMS-nə cəlb olunan işçilərin sayı qida və içki sənayesində çalışanların sayından heç də geri qalmır. Sözügedən sahələr avtomobil istehsalı sahəsi ilə müqayisədə təqribən 2.5 dəfə, kimya sənayesi ilə müqayisədə isə 5 dəfə çox insanı işlə təmin edir. [1]

2013-cü ildə mədəniyyət və yaradıcılıq sektorlarında işə götürülən 15-29 yaşlı gənclərin orta hesabla sayı istənilən digər sektor ilə müqayisədə daha çox idi (iqtisadiyyatın yerdə qalan sahələrində qeydə alınan 18.6%-lik göstərici ilə müqayisədə, YMS-də ümumi məşğulluğun 19.1%-ni təşkil etməsi). Şərqi və Mərkəzi Avropada bu tendensiya daha çox nəzərə çarpır: kreativ iqtisadiyyatda gənclərin payına düşən iş yerlərinin orta hesabla sayı iqtisadiyyatın yerdə qalan sahələri ilə müqayisədə 1.3% çoxdur. [1]

BK işçi qüvvəsinin 24%-ni, gələcəkdə robotlarla əvəz edilmək riskinin aşağı olduğu yaradıcı peşələrin 87%-ni təşkil edən yaradıcılıq sektorunda yüksək məşğulluq həddinə malikdir. [7]

BK-da 12 iş yeri sırasında birdən çoxu kreativ iqtisadiyyatın payına düşür. 2013 və 2014-cü illərdə kreativ iqtisadiyyatda məşğulluq göstəricisi 5% artmışdır. Sözügedən dövrdə ümumilikdə iqtisadiyyatda iş yerlərinin sayında 2.1% artım qeydə alınmışdır. [6]

Fərdi əmək fəaliyyəti ilə məşğul olanların əksər hissəsi "musiqi, ifaçılıq sənəti və təsviri incəsənət" kimi sahələrdə çalışmışdır. Sözügedən qrupda 10 nəfər sırasında 7-dən çoxu fərdi əmək fəaliyyəti ilə məşğul olmuşdur. [3]

"Dizayn və dizayner-modelyer" qrupu 2011-2013-cü illər ərzində Kreativ İqtisadiyyatda məşğulluq üzrə ən yüksək artım göstəricisi nümayiş etdirmişdir (17.7% və ya 27 000 iş yeri). [3]

***Müxtəliflik***

BK-ın yaradıcılıq sahələrində açılmış iş yerlərinin təqribən 11,4%-i Qaradərililər, Asiyalılar və Etnik Azlıqlar (BAME) tərəfindən tutulmuşdur. [2]

# Mədəniyyət təyinatlı və rəqəmsal texnologiyalar

Onlayn qaydada satın alınan məhsul və xidmətlərdən ibarət 7 əsas kateqoriyadan ikisi mədəniyyət sektoruna aiddir. Kitablar onlayn qaydada ən çox satın alınan predmetlərdən biridir: Alıcıların 35%-i artıq kitabları bu yolla alır. Konsert, festival və teatr biletləri yeddinci sırada qərarlaşır, onlayn alıcıların 25%-i tədbirlərin keçirilmə yerlərinin nümayiş olunduğu veb saytlara və pərakəndə bilet satışının həyata keçirildiyi digər məkanlara baş çəkir. [1]

Aİ ölkələrində istehlakçılar musiqi dinləməyə, radio və televiziya proqramına yetişməyə və mobil qurğularda oyunlar oynamağa vərdiş ediblər. Onlar yaradıcılıq işlərini "istehlak etdikləri" vaxtın orta hesabla 70%-ni planşetlərin arxasında keçirirlər. Onlar smartfonlardan istifadə zamanı vaxtlarının 50%-ni zəng etməyə deyil, oyun oynamağa, video izləməyə, musiqi dinləməyə və ya İnternet səhifələrə baxmağa sərf edirlər. [1]

Avropalı istehlakçılar dünyanın "rəqəmsal düşüncəli" istifadəçiləri sırasında yer alır. Qərbi Avropada smartfon istifadəçilərinin sayı 197 milyona çatır, bu göstərici ilə Qərbi Avropa təmərküzləşmə dərəcəsinə görə dünyada ikinci yerdə qərarlaşır və avropalıların 73.1%-i internetdən istifadə edir. [1]

Mədəniyyət və yaradıcılıq məzmununun intellektual, qoşulmuş qurğuların satışları üzərindəki iqtisadi təsirləri (Mədəniyyət və yaradıcılıq məzmunlarının (videolar, oyunlar, musiqi və s.) qiymətləndirilmiş dolayı təsiri):

*Planşetlər 9.4 milyard avro*
*Smartfonlar 22.27 milyard avro*
*Fərdi kompüterlər 10.35 milyard avro* [1]

"İT, proqram təminatı və kompüter xidmətləri" 2013-cü ildə kreativ məşğulluq həddinin 825 min nəfərə çatdığı ən böyük qrup kimi qiymətləndirilir. 2011-ci ildən etibarən sözügedən qrupda iş yerlərinin sayında 117 minədək (16.4%) artım müşahidə edilmişdir.

2008-ci ildə KİV və əyləncə üzrə istehlakçı xərclərinin təqribən 12%-i rəqəmsal məhsul və xidmətlərin payına düşürdü; 2017-ci ilədək bu göstəricinin təxminən 50%-ə qədər artacağı gözlənilir. [5]

Rəqəmsal texnologiya hal-hazırda yeni gəlir axınları yaratmaq üçün internetdən istifadə edən incəsənət və mədəniyyət təşkilatlarının 51%-ni təşkil etməklə və 2013-cü il üzrə 17%-lik artım göstəricisi nümayiş etdirməklə mədəniyyət yönümlü biznes modelləri üçün getdikcə daha çox əhəmiyyət kəsb etməyə başlayır. [5]

2012-ci ildə BK-da “kraudfandinq” (xalq maliyyələşdirməsi) üsulundan istifadə etməklə, 200 milyon funt-sterlinq məbləğində kapital qoyuluşu həyata keçirilmişdir. 2013-cü ildə BK-da böyüklərin 25%-i resurslardan və maliyyə vəsaitlərindən birgə istifadə etmək məqsədilə internet texnologiyasına müraciət etmişdilər. İngiltərədə aparılmış bir araşdırma zamanı 947 mədəniyyət təşkilatının 73%-i rəqəmsal fəaliyyətlərin onların işinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərdiyini qeyd etmişdir. [5]

İncəsənət və mədəniyyət təşkilatlarının 51%-i isə rəqəmsal texnologiyaların onların biznes modelləri üçün mühüm və ya xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdılar. Həmin təşkilatlar böyük ehtimalla gəlir gətirən onlayn fəaliyyətlərə (məsələn, ianələr və xalq maliyyələşdirməsi) cəlb ediləcəkdilər. [4]

Rəqəmsal inqilab həyatımızın digər aspektlərini dəyişdirdiyi kimi mədəniyyətə də dəyişikliklər gətirir. O, qeyri-formal mədəniyyət və yaradıcılıq fəaliyyətlərində iştirak səviyyəsini yüksəltmiş, yeni qarşılıqlı əlaqə şəbəkələri və növləri yaratmış, müəyyən edilmiş incəsənət formalarının istehsal və bölgü prosesini dəyişdirmiş, habelə, yeni incəsənət formalarının meydana gəlməsinə imkan yaratmışdır. [5]

# Təsviri incəsənət

Muzeylər təsviri incəsənət nümunələrini bütün vətəndaşlar üçün əlçatan edən əsas məkanlardır. Dünyanın ən çox ziyarət olunan incəsənət muzeylərindən yeddisi Avropada yerləşir. Onlardan üçü Parisin, digər üçü isə Londonun payına düşür. Parisin Luvr muzeyini ziyarət edənlərin sayı 2012-ci ildə təqribən 10 milyon nəfərə çatmışdır və bütün iddiaçılar 3 milyondan çox insan cəlb etmişdir. Bu isə muzeyin yerli və xarici ziyarətçilər üçün cəlbedici xarakter daşıdığını göstərir. [1]

Avropanın müxtəlif muzeylərinin ziyarətçiləri bir araşdırma zamanı onlara ünvanlanan sualları cavablandırarkən, 28%-i əyləncə və zövq, 26%-i təlim və təhsil, 17%-i isə tarix barədə məlumatlar axtarışında olduqlarını söyləmişdilər. [1]

Təsviri incəsənət üçün dünya miqyaslı destinasiya rolunu oynayan Avropa dünyanın aparıcı incəsənət bazarı hesab olunur. Dünya üzrə incəsənət bazarının 34%-ni (dəyər ifadəsində) təşkil etməklə Avropa (o cümlədən, İsveçrə) incəsənət nümunələrinin satışına görə dünya lideridir və bu baxımdan Çini (30%), habelə ABŞ-ı (29%) geridə qoyur. [1]

Avropada incəsənət əşyalarının ticarətində ilk üçlüyü BK (Aİ bazarının 65%-ni təşkil etməklə), Fransa (17%) və Almaniya (5%) tamamlayır. London beynəlxalq auditoriyaya malik incəsənət mərkəzi kimi öz mövqeyini təsdiq edir; BK-da yerləşən "Christie’s" dünyanın aparıcı hərrac evlərindən biri hesab olunur, 2013-cü ildə onun şəxsi satışlarının və dövriyyəsinin həcmi 7 milyard ABŞ dolları təşkil etmişdir. [1]

2016-cı ildə Aİ-dən 6.2 milyard avro məbləğində incəsənət predmetləri və əntiq əşyalar ixrac edilmişdir, idxal əməliyyatlarının məbləği isə 5 milyard avroya bərabər olmuşdur. Bu isə öz növbəsində Avropanın incəsənət nümunələrinin satışı üçün beynəlxalq mərkəz kimi strateji əhəmiyyətə malik olduğunu göstərir. [1]

# İfaçılıq sənəti

Avropada təqribən 1,234,338 insanı işlə təmin edən ifaçılıq sektoru qitənin mədəniyyət və yaradıcılıq sahələri arasında ən böyük işəgötürəndir və 6 iş yeri sırasında birdən çoxu onun payına düşür. [1]

2011-ci ildə ifaçılıq sənətinin dünya üzrə gəlirlərinin üçdə bir hissəsindən çoxu (37%) konsertlərin və musiqi festivallarının payına düşmüşdür. [1]

Aparılmış tədqiqatın nəticələrinə əsasən, respondentlərin 45%-i Avropanın festival bazarının "çiçəkləndiyini" düşünür, 40%-i isə iqtisadi böhranın onların kapital qoyuluşu və inkişaf planına ciddi dərəcədə təsir etmədiyi fikrindədir. [1]

Siget Festivalı - səkkiz günlük irimiqyaslı musiqi festivalı 1993-cü ildən etibarən hər il Budapeştdə keçirilir və gündəlik olaraq, 65 mindən çox iştirakçını bir araya gətirir. Sözügedən açıq hava festivalları önəmli işəgötürənlər sırasında yer alır və əsasən, gənc nəslin yerli, yüksək ixtisaslı və təhsilli nümayəndələrini işçi qüvvəsi kimi cəlb edir. Sözügedən iş yerləri heç vaxt uzaq ölkələrə həvalə oluna bilməz: bu isə öz növbəsində yerli səviyyədə əhəmiyyətimizi daha da artırır. [1]

### *İfaçılıq sənəti və turizm*

İfaçılıq sənəti insanların cəlb edilməsi istiqamətində xüsusi əhəmiyyətə malikdir: məsələn, BK-a səfər edən turistlərin 9.2%-i teatr, musiqili komediya, opera və ya balet kimi sənət növlərinə böyük maraq göstərirlər. Parklarda, barlarda, restoranlarda, hətta çadır şəhərciklərində nümayiş olunan yerli ifalar Avropanın turizm baxımından cəlbediciliyini şərtləndirən əsas elementlərdən biridir. [1]

Avropanın bir çox ölkələrində və paytaxt şəhərlərində zəngin mədəni irs müasir teatr və musiqinin dinamizmi vasitəsilə möhkəmlənir. [1]

Təkcə Fransada mədəniyyət yönümlü turizm 2011-ci ildə gəlirlərin 18 milyard avrosunu təşkil etmiş və turistlərin istehlak qərarlarının 35%-i onun payına düşmüşdür. [1]

Avropanın sevilən istirahət destinasiyalarından birində - Barselonada teatrlar 2011-ci il ərzində 2.8 milyon ziyarətçi qəbul etməklə, rekord göstərici nümayiş etdirmişdir. [1]

# Nəşriyyat işi

Avropanın nəşriyyat sektoru dünyadakı ən böyük sektorlardan biri hesab olunur və dünyanın ən məşhur 10 kitab nəşriyyatından 7-si Avropaya məxsusdur. [1]

Satış həcminin 36.3 milyard avroya çatdığı kitab bazarı Avropanın kreativ iqtisadiyyatına ən çox töhfə verən sahələrdən biridir. O, kino sənayesini və ifaçılıq sənətini geridə qoymaqla, böyüklüyünə görə 5-ci yerdə qərarlaşır. Avropada bu sahədə təqribən 650 000 insan çalışır.  Avropada müəlliflərin sayı təxminən 150 000-ə çatır. [1]

***Qəzet və jurnallar***

Qəzet və jurnal sənayesində çalışan insanların sayı 500 mindən az olsa da, onun gəlirlərinin ümumi məbləği 70 milyard avrodan çoxdur. Bu səbəbdən o, böyüklüyünə görə dördüncü yerdə qərarlaşan yaradıcı biznes sahəsi hesab olunur. Köşkdən və ya yol kənarındakı kiçik mağazadan alınan yaxud abunə hesabı vasitəsilə çatdırılan qəzetlər ümumi satışların 60%-ni təşkil edir. Naşirlərin gəlirlərinin yarısı reklamdan əldə olunur. Reklam onların tarixi biznes modelinin ən önəmli elementlərindən biridir. [1]

Avropa dünyanın aparıcı qəzet və jurnal bazarıdır. Aİ28 uzun müddət dünyanın ən böyük bazarı hesab olunmuşdur: 2012-ci ildə bütün dünya üzrə jurnalların üçdə biri burada satılırdı. Aİ bu göstərici ilə ABŞ (24%) və Yaponiyanı (11%) geridə qoyurdu. [1]

Dünyanın ən böyük mətbuat agentliklərindən ikisi ("AFP" və "Reuters") Avropa mənşəlidir. Ən uğurlu yeni biznes modellərindən bəziləri Avropaya məxsusdur: həftəlik xəbər jurnalı "Der Spiegel" yeni platformalara və rəqəmsal məzmuna keçid prosesinin öhdəsindən effektiv şəkildə gəlmişdir. 60 jurnalistin çalışdığı internet nəşri hər ay 5.6 milyon unikal ziyarətçi tərəfindən oxunur və çap nəşrindən fərqli olaraq, "Der Spiegel" jurnalının veb saytı 2005-ci ildən bəri gəlirlə işləyir. [1]

# Musiqi sənayesi

Musiqi sənayesində çalışan 1.2 milyon insanın demək olar ki, əksəriyyəti musiqi əsərlərinin bəstələnməsi və ifa olunması ilə məşğul olur. Qeydiyyatdan keçmiş musiqiçilərin, bəstəkarların və söz müəlliflərinin sayı 650 000 nəfər təşkil edir. [1]

Avropanın lentə alınmış musiqilər bazarı genişlənən rəqəmsal bazarlar vasitəsilə idarə olunur. 2009-2013-cü illər ərzində Avropada lentə alınmış musiqilər üzrə rəqəmsal satışların həcmi 109% artmışdır. [1]

Avropalılar lentə alınmış musiqilərin dünya üzrə ən böyük istehlakçılarından biri olaraq qalmaqdadır. 2013-cü ildə dünyanın ən nəhəng bazarları sırasında dörd Aİ ölkəsi yer almışdır. Beynəlxalq Fonoqrafiya Sənayesi Federasiyasının (IFPI) məlumatına əsasən, 2013-cü ildə dünya üzrə lentə alınmış musiqilərin ticarət gəlirlərinin 39%-i, Avropa üzrə isə sözügedən ticarət gəlirlərinin 32%-i rəqəmsal satışların payına düşürdü. [1]

Avropada kollektiv hüquqların idarə edilməsi üzrə təşkilatlardan yığılan lisenziya ödənişləri ümumdünya göstəricisinin 60%-ni təşkil edir, onun 2,80%-i isə musiqi sənayesində toplanan ödənişlərin payına düşür. [1]

Rəqəmsal biznes modellərinin yaradılması və onlardan istifadə edilməsi Avropanın musiqi sənayesinin uğurunu şərtləndirən ən mühüm amillərdən biridir. Səsyazma şirkətləri lisenziyalaşdırılmış musiqi parçalarının sayını artırmaqla və müğənnilərin beynəlxalq auditoriyaya tanıdılması prosesinə yeniliklər gətirməklə, musiqi əsərlərinin rəqəmsal kanallar vasitəsilə insanlara çatdırılması işinin öhdəsindən uğurla gəlir. [1]

2013-cü ildə abunə sistemi üzrə işləyən musiqi axın xidmətlərindən əldə olunan gəlirin həcmi 51,3%-ə qədər yüksəlmiş və ilk dəfə olaraq, qlobal miqyasda (təqribən 750 milyon avro) 1 milyard ABŞ dollarını ötmüşdür. [1]

Son bir neçə il ərzində Avropada onlayn musiqi xidmətləri əhəmiyyətli dərəcədə inkişaf etmişdir. 2013-cü ilə qədər Avropada 230-dan çox musiqi xidməti istifadəçilər üçün əlçatan idi və Aİ ölkələrinin hər birində 37 milyondan çox musiqi trekləri təklif olunurdu. 2013-cü ildə Avropada lentə alınmış musiqi parçalarının satışının 32%-i rəqəmsal satışların, 56%-i isə fiziki formatda satışların payına düşürdü. [1]

# Kino sənayesi

Gəlirləri 17 milyard avroya çatan bu sahədə təqribən 650 000 insan çalışır. Onun ən böyük və yeganə gəlir mənbəyi kinoteatr biletlərinin satışıdır - "ümumi kassa gəlirləri" adlandırılan həmin gəlirlərin həcmi 2012-ci ildə ümumdünya göstəricisinin 36.5%-ni təşkil etmişdir. [1]

BK-ın film-əyləncə bazarı öz böyüklüyünə görə dünyada üçüncü yeri tutur. BK-ın seçmə filmləri dünya bazarının 11.4%-ni təşkil etməklə, 4.1 milyard funt-sterlinq qazanmışdır. Müstəqil BK filmləri dünya bazarının 1.6%-ni təşkil etmiş və 649 milyon funt sterlinqdən çox vəsait qazanmışdır. Avropada BK filmlərinin bazar payı dəyişərək, 10%-dən 16%-ə qədər artmışdır. 2012-ci ildə film, televiziya, video və s. BK iqtisadiyyatına ümumi əlavə dəyərin 9.8 milyard funt-sterlinqi məbləğində töhfə vermişdir. [1]

Britaniya filmləri ümumilikdə bütün dünya üzrə 4.1 milyon ABŞ dolları qazanmışdır,

bu isə dünya üzrə kassa yığımlarının 11%-nə bərabər olmuşdur. "Film, televiziya, video, radio və fotoşəkil" qrupu 2011-2013-cü illər ərzində (11.8% və ya 27 000 iş yeri) Kreativ İqtisadiyyatda məşğulluq üzrə faiz artımının səviyyəsinə görə üçüncü yerdə qərarlaşmışdır. [5]

Sözügedən filmlər təkcə Brtianiya auditoriyalarından 773 milyon funt sterlinq məbləğində ümumi gəlir qazanmışlar. [5]

# Memarlıq

Avropada təqribən yarım milyon memarın qeydiyyatdan keçdiyi və gəlirlərinin 36 milyard avroya çatdığı memarlıq sahəsi Avropanın kreativ iqtisadiyyatında xüsusi əhəmiyyət daşıyan biznes sahəsidir. [1]

# Reklam

Gəlirlərinin məbləği 2012-ci ildə 93 milyard avro təşkil edən və 820 000 əməkdaşdan ibarət olan reklam biznesi Avropanın yaradıcılıq və mədəniyyət sahələrində güclü qüvvə hesab olunur.  YMS üzrə gəlirlərin təqribən 17%-ni təşkil etməklə, o, təsviri incəsənətdən sonra ikinci ən böyük biznes sahəsi kimi qiymətləndirilir. [1]

Dünyanın ən böyük üç reklam qruplarından ikisi Avropaya məxsusdur: Londonda yerləşən "WPP Group" və mənzil-qərargahı Parisdə yerləşən "Publicis Groupe". Dövriyyə həcmi müvafiq olaraq, 16.4 milyard avro və 8.5 milyard avro təşkil edir. [1]

# Radio

2012-ci ildə radio avropalı istehlakçılar tərəfindən televizordan sonra ən çox istifadə olunan ikinci vasitə olmuşdur. Hər 5 avropalıdan 4-ü gün ərzində 2 saat və ya daha uzun müddət radioya qulaq asır. Sahənin gəlirləri 10 milyard avro təşkil edir və 97 000 iş yeri onun payına düşür. [1]

# Video oyunlar

Yüz mindən çox əməkdaşın çalışdığı və illik satış həcminin 16 milyard avroya çatdığı video oyun sənayesi qlobal gücə malik gənc sahədir. [1]

Avropanın hüdudlarından kənarda ixracın illik həcminin 3 milyard avroya çatması ilə video oyunlar Avropanın mədəniyyət təyinatlı predmetləri sırasında ən çox alınıb-satılan ticarət predmetinə çevrilmişdir. [1]

# Mədəni həyatda iştirak və vətəndaş fəallığı

Müxtəlif tədqiqatlarda aşağıdakı məsələlər yer alır: hansı proseslərin köməyilə mədəni həyatda iştirak siyasi həyatda iştiraka olan inamın möhkəmləndirilməsində gənclərə kömək edir, ictimai incəsənət icmaları və onların gələcəyini necə əks etdirir, milli azlıqlar kollektiv fikrə, mənsubiyyətə və tanınmaya necə nail olur. [4]

İncəsənət fəaliyyətinin iştirakçıları bu prosesdə iştirak etməyən insanlarla müqayisədə, vətəndaş fəaliyyətlərinə daha intensiv şəkildə cəlb olunurlar. "Modelə uyğun olaraq, insanların təhsil səviyyəsindən, cinsindən və digər seçilmiş demoqrafik əlamətlərindən, habelə, incəsənət həyatında iştirak və icma yığıncaqları arasındakı əlaqələrə tətbiq edilən analoji nəticələrdən asılı olmayaraq, ifaçılıq sənətinin iştirakçılarının könüllü olacağı ehtimalı iştirakçı olmayanlar ilə müqayisədə 3.8 dəfə yüksəkdir." Vətəndaş fəallığının səviyyələrindəki fərqlər təkcə iştirakçı qismində çıxış etməyən, həm də incəsənəti yaradan və həyata keçirən insanlar üçün daha böyükdür. [4]

2004-cü ildə ABŞ-da keçirilən prezident seçkilərində aşağı sosial-iqtisadi statusa, habelə aşağı bədii iştirak səviyyəsinə malik gənclərin yalnız 1%-i səs verdiyi təqdirdə, eyni sosial-iqtisadi statusa, lakin yüksək bədii iştirak səviyyəsinə malik gənclərin 45%-i səsvermə prosesində iştirak etmişdir. [4]



# Mədəniyyət və sülh quruculuğu

İncəsənət və mədəniyyət tədbirləri sülh quruculuğuna, silahlı toqquşmadan sonra sağalmaya imkan yaradır, habelə, travmanın səbəblərinin öyrənilməsində və məsələnin yoluna qoyulmasında icmalara kömək edir. [4]

İncəsənət travmanın səbəblərinin öyrənilməsinə, məsələnin yoluna qoyulmasına imkan yarada, habelə, öz yolunu davam etdirməkdə insanlara kömək edə bilər. İncəsənətin təcrübələri genişləndirmək və adi siyasi dialoq nəticəsində meydana gələcək daha neytral vəziyyətdə digər insanlar haqqında düşünmək məsələsində oynadığı rol xüsusi əhəmiyyət kəsb edir. Onun xüsusən sponsorlar tərəfindən dəstəklənən rolu vaxtilə düşmənçilik etmiş icmalar arasında əlaqələr qurmaq və indiyə qədər ciddi travmalardan əziyyət çəkən icmalarda əksetməyə imkan yaratmaq vasitəsilə icra oluna bilər. [4]

İncəsənət xatirələri bərpa etmək, hekayələri aydın ifadə etmək, qarşılıqlı münasibətlərin və anlaşmanın yeni formalarını yaratmaq üçün alternativ, bəlkə də təhlükəsiz sahələr yarada bilər. [4]


**1.** http://www.ey.com/Publication/vwLUAssets/Measuring_cultural_and_creative_markets_in_the_EU/$FILE/Creating-Growth.pdf

**Artıma səbəb olma. Aİ ölkələrində mədəniyyət və yaradıcılıq bazarlarının qiymətləndirilməsi.  Dekabr 2014-cü il**

**2.** http://www.thecreativeindustries.co.uk/media/367095/final-version-july-5.pdf

**Birlikdə Yaratmaq.**
**Yaradıcılıq Sahələri Şurasının Sahələrarası Əməkdaşlıq strategiyası.**

**3.** http://www.thecreativeindustries.co.uk/media/281787/creative_industries_economic_estimates_-_january_2015.pdf

**Yaradıcılıq Sahələrinin İqtisadi Qiymətləndirmələri.**
**Statistik Reliz  Yanvar 2015-ci il**

**4.** http://www.ahrc.ac.uk/documents/publications/cultural-value-project-final-report/

**İncəsənət və mədəniyyətin əhəmiyyətinin dərk edilməsi AHRC Mədəni Dəyər Layihəsi. 2016-cı il**

**5.** http://www2.warwick.ac.uk/research/warwickcommission/futureculture/finalreport/warwick_commission_report_2015.pdf

**Böyük Britaniyanın zənginləşdirilməsi: Mədəniyyət, Yaradıcılıq və Artım Uorvik Komissiyasının (Warwick Commission) Mədəni Dəyərin Gələcəyi haqqında 2015-ci il Hesabatı**

**6.** https://www.theguardian.com/culture/2015/jul/13/publicly-funded-arts-bolster-the-uk-economy-study-finds

**Dövlət büdcəsindən maliyyələşdirilən incəsənət növləri BK iqtisadiyyatına dəstək verir və tədqiqat nəticələrini yaxşılaşdırır. İyul 2015-ci il**

**7.** http://www.creativeindustriesfederation.com/assets/userfiles/files/CIF_EduAgenda_spreads.pdf

**Yaradıcılıq Sahələri Federasiyasının Yaradıcılıq Təhsilinə dair Proqramı.**